https://doi.org/10.59849/2311-8482.2025.3.249

RAMİZ QASIMOV*

# BƏXTİYAR VAHABZADƏ YARADICILIĞININ POETİK QAYƏSİ: MİLLİ BİRLİK VƏ İSTİQLALİYYƏT ÇAĞIRIŞLARI

*Azərbaycan ədəbiyyatının görkəmli nümayəndələrindən olan Bəxtiyar Vahabzadənin [1925-2009] əsərləri Azərbaycan türklərinin milli oyanışı, istiqlalı və türk birliyinə əhəmiyyətli töhfələr vermiş, bu üzdən Azərbaycan istiqlal ədəbiyyatının görkəmli nümayəndələrindən biri kimi məşhurlaşmışdır. Bu kimi xidmətlərinə görə Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyev Bəxtiyar Vahabzadəni "İstiqlal" ordeni ilə təltif etmişdir. Böyük şairimizin "Gülüstan" adlı əsəri də məhz Azərbaycanın Güney və Quzey olaraq ikiyə bölünməsinə səbəb olan "Gülüstan" müqaviləsinə həsr olunmuşdur. Onun əsərlərində Azərbaycan türklərinin milli və siyasi taleyi, suverenliyi, birliyi və s. kimi motivlər yer almaqdadır. Şairin "Gülüstan", "İstiqlal" və "Şəhidlər" kimi əsərləri Azərbaycan türk xalqının istiqlal uğrunda mübarizə mövzusuna həsr olunmuşdur. Onun "Azərbaycan oğluyam" əsərində türk-Azərbaycan milliyyətinə mənsubiyyət, "Ana dili" və "Anamın kitabı" kimi əsərlərində milli dil və heysiyyət mövzuları qələmə alınmışdır. Ədibin "Muğam", "Özümüzü kəsən qılınc", "Dar ağacı" kimi əsərlərində də Azərbaycan türklərinin milli dəyərləri, milli müstəqilliyi, istiqlalı və başqa motivlər əhəmiyyətli dərəcədə yer alır.*

***Açar sözlər:*** *Bəxtiyar Vahabzadə, milli birlik, milli düşüncə, istiqlal motivləri.*

## Giriş

Böyük Azərbaycan şairi, türk dünyasının istiqlal çağırışçısı Bəxtiyar Vahabzadənin [1925-2009] anadan olmasının 100 illiyinin qeyd edilməsi haqqında Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev sərəncam imzalamışdır. Sərəncamda da qeyd edildiyi kimi, "Bəxtiyar Vahabzadə mübariz şəxsiyyəti və çoxşaxəli fəaliyyəti ilə XX əsrin ikinci yarısından etibarən Azərbaycan bədii-ictimai fikir tarixinə parlaq səhifələr yazmış qüdrətli simalardandır. Onun Vətənə, millətə və doğma ana dilinə sonsuz məhəbbət ifadə edən, dərin poetik-fəlsəfi düşüncələrlə zəngin irsi daim mədəni-mənəvi dəyərlərə ehtiram, milli azadlıq ideallarına bağlılıq və istiqlal məfkurəsinə sədaqət hissi aşılamışdır. Sənətkar ədəbi və elmi yaradıcılığını uzun illər pedaqoji fəaliyyəti ilə uğurla əlaqələndirərək, bir neçə nəslin milli təfəkkürünün formalaşmasında müstəsna rol oynamışdır. Bəxtiyar Vahabzadə ictimai xadim kimi xalqın taleyüklü məsələlərinə münasibətdə həmişə əsl ziyalı mövqeyi nümayiş etdirmişdir" [11]. Bu mənada Azərbaycan ədəbiyyatının görkəmli nümayəndəsi olan Bəxtiyar Vahabzadə əsərlərində Azərbaycan xalqının milli oyanışı, istiqlalı və birliyinə əhəmiyyətli töhfələr vermiş, bu üzdən Azərbaycan istiqlal ədəbiyyatının görkəmli nümayəndələrindən biri kimi məşhurlaşmışdır. Bu xidmətlərinə görə Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyev Bəxtiyar Vahabzadəni "İstiqlal" ordeni ilə təltif etmişdir.

## Vətəndaş şairin milli qayəsi: poeziyada istiqlal çağırışları

Azərbaycanın istiqlal şairi B.Vahabzadənin əsərlərinin bir çoxunda Azərbaycan-türk milli xarakteri, düşüncəsi başlıca yer tutur. Şairin "Azərbaycan oğluyam" şeiri bu mövzuda yazılan ən yaxşı əsərlərdən biridir. Bu şeirində türk-Azərbaycan milliyyətinə mənsubiyyət, Azərbaycan türkünün qürurverici tarixi, fəxarət dolu keçmişi başlıca mövzudur.

Azərbaycan oğluyam,
Odu Allah sanmışam.
Anam torpaq,

Atam od,
Mən oddan yaranmışam:
Od kimi istiqanlı,
Seltək dəliqanlıyam [8, s. 32] –

kimi misralarında Azərbaycan milli xarakterini təqdim etməyə çalışan şair onu metaforik planda ifadə etməyə nail olur. Bu şeirində də şair Azərbaycan xalqının ən böyük dərdi olan ikiyə bölünmək ağrısını əks etdirir.

Neyləyək ki zamanın
Uğursuz yollarında
İkiyə bölünmüşəm.
İki başlı, bir qəlbli
Bir bədənə dönmüşəm.
Həm Təbriz, həm Bakıdır
Məkkəm, Mədinəm mənim [8, s. 34] –

misralarında uzun zamanlar Azərbaycan dövlətinin paytaxtı olmuş Təbriz və Bakı şəhərlərini islamın böyük və önəmli şəhərləri olan Məkkə və Mədinə ilə müqayisə edir, Təbriz və Bakını Azərbaycan adlı vətənçilik etiqadına tapınan dinin Məkkəsi və Mədinəsi elan edir.

Azərbaycanın bütövlüyü, böyüklüyü və istiqlalı Bəxtiyar Vahabzadə əsərlərinin ana mövzusunu təşkil edir. Şair nə yazırsa yazsın, Azərbaycanın istiqlalı və türk milli birliyi həmişə onu düşündürür. "Vətəndən vətənə", "Azərbaycan oğluyam", "Mənim şeirim", "Şair-vətən", "Əgər qorunmazsa istiqlalımız" və başqa şeirlərində də bəhs edilən mövzu əhəmiyyətli yer tutmaqdadır:

Arazın
bu tayı Vətənim,
o tayı Vətənim.
Vətəni görməyə amanım yox mənim.
Bu necə vətəndir?
Görmədim üzünü
Çatsam da bu yaşa
Ömründə bir dəfə.
Bəs salam verməzmi
Qardaş da qardaşa?
Bu qəmim, bu dərdim dağlardan ağırdı
Arazın suyuna qarışıb axıram.
Füzuli həsrətlə qürbətdən Vətənə baxırdı,
Mən isə...Vətəndən-Vətənə baxıram [8, s. 16-17].

Şair "Azərbaycan oğluyam" şeirində milli xarakterdən bəhs etməklə yanaşı Azərbaycanın ikiyə bölünməyindən söz açır:

Neyləyək ki, zamanın
Uğursuz yollarında
İkiyə bölünmüşəm".

Yaxud:

Əlimiz də bir bizim,
Dilimiz də bir bizim.
Vətənimiz bir bizim,
Dünənimiz bir bizim,
Olmuşuq bir Vətəndə

Biz bu gün başqa-başqa.
Bizim talelərimiz
Bəs neçün başqa-başqa? [8, s. 35]–

kimi düşündürücü suallarla millətinin acı taleyini göstərməyə çalışır, onun taleyinin uğursuzluğuna diqqəti cəlb edir, oxucusunu düşündərməyə, milli tarixini, keçmişini ona anlatmağa, xatırlatmağa səy göstərir. Bəxtiyar Vahabzadə "Şair – vətən" şeirində:

Bəlkə də ən zəif, ən kiçik şair
Böyük vətəndaşdır Vətənimizə...
Şairin bədəni - bu ana torpaq,
Nəfəsi - xəzridir, qanı - Kür, Araz.
Çox şəy Vətənsiz də yaşayır, ancaq
Şairsə Vətənsiz, əlsiz yaşamaz...
Şairə vəzifə, rütbə nə gərək!
"Vətən", "Vətən" deyir könül səsi də.
Vətəni sevməkdir, Vətəni sevmək,
Şairin ən böyük vəzifəsi də [8, s. 42-43] -

söyləməklə bütün şairlərin, əlbəttə, özünün də vətəninin hayqırışı, səsi, fəryadı, duyğularının ifadəçisi olduğunu bildirir.

**Poemalarında istiqlaliyyət və birlik motivləri**

Bəxtiyar Vahabzadənin bir şair və vətəndaş olaraq qayəsi öz vətəni və milləti üçün əhəmiyyətli xidmətlər göstərməklə xarakterizə oluna bilər. Bu baxımdan tamamən doğru deyilmişdir ki, "Bəxtiyar Vahabzadənin poeziyasında Azərbaycanın bütövlüyü və istiqlaliyyəti mərkəzi yer tutur" [5]. Çox vaxt Azərbaycan və türk dünyası ədəbiyyatı üçün bu görkəmli şairi "Azadlıq aşiqi, Vətən aşiqi" [10, s. 171] deyə xarakterizə edirlər. Zəngin bir yaradıcılığa malik olan bu şair əsərlərində həmişə Azərbaycan xalqının istiqlalı ilə bağlı mövzuları qələmə almış, türk milli birliyi adına şeirlər yazmışdır. Azərbaycanın milli və ərazi birliyi mövzusunu qələmə alan "Gülüstan" əsəri şairin ən dəyərli və oxunaqlı əsərlərindən biri olaraq Azərbaycan ədəbiyyatının qızıl fonduna daxil olmuşdur. Poema Azərbaycanın Güney və Quzey olaraq ikiyə bölünməsinə səbəb olan "Gülüstan" müqaviləsinə həsr olunmuş, milli istiqlal mücadiləsi və oyanış vaxtlarında ən çox oxunan əsərlərdən biri olmuşdur. Bu üzdən haqlı deyilib ki, ""Gülüstan" bir xalqın tarixi faciəsinin ibrət dərsidir" [10, s.170]. Bu da maraq doğurur ki, adıgedən "Gülüstan" əsəri Azərbaycan xalqının milli mücadilə tarixinin görkəmli nümayəndələrindən olan Səttarxan və Şeyx Məhəmməd Xiyabaniyə həsr edilmişdir.

İpək yaylığıyla o, asta-asta
Silib eynəyini gözünə taxdı.
Əyilib yavaşca masanın üstə
Bir möhürə baxdı, bir qola baxdı.
Kağıza həvəslə o da qol atdı,
Dodağı altından gülümsəyərək.
Bir qələm əsrlik hicran yaratdı
Bir xalqı yarıya böldü qılınc tək.
Öz sivri ucuyla bu lələk qələm
Dəldi sinəsini Azərbaycanın.
Başını qaldırdı, ancaq dəmbədəm
Kəsdilər səsini Azərbaycanın.

O güldü kağıza qol çəkən zaman,
Qıydı ürəklərin hicran səsinə.
O güldü haqq üçün daim çarpışan
Bir xalqın tarixi faciəsinə [9, s. 76].

Əsərin girişindən olan bu parçada şair bir müqavilə ilə Azərbaycan kimi neçə əsrlik bir dövlətin, xalqın və torpaqların – Vətənin necə paçalandığını dərin bir kədərlə qələmə almışdır. Burdakı "Bir qələm əsrlik hicran yaratdı" misrası da məhz zamanının böyük türk dövlətlərindən biri olan Azərbaycanın necə iki hissəyə parçalandığını anladır. "Başını qaldırdı, ancaq dəmbədəm Kəsdilər səsini Azərbaycanın" [9, s. 76] misraları zaman-zaman Azərbaycan xalqının birlik və istiqlaliyyət uğrunda apardığı milli mücadilədən bəhs edir. Neçə dəfə Cənubi Azərbaycan deyə bəhs olunan Azərbaycanın cənub hissəsində Səttarxan, Şeyx Məhəmməd Xiyabani, Seyid Cəfər Pişəvəri kimi görkəmli mücahidlərin liderliyi ilə xalq hərəkatı baş qaldırmış, vəhşiliklə istilaçılar tərəfindən yatırılmış, minlərcə Azərbaycan oğul və qızları qanlarına qəltan olunmuş, Azərbaycan naminə şəhid olmuşlar. Böyük şairimiz də məhz bir misra daxilində bu böyük tarixi xatırlatmağa çalışmış, kiçik bir misra daxilində Azərbaycanın böyük bir mücadilə tarixinə baş vurmağı, bir xatırlatma etməyi məqsəd bilmişdir.

Onun əsərlərində Azərbaycan türklərinin milli və siyasi [Güney və Quzey Azərbaycan] problemləri, habelə Azərbaycan türklərinin milli-siyasi müstəqilliyi, türk dünyasının birliyi, qardaşlığı və s. kimi əhəmiyyətli mövzular və motivlər yer almaqdadır. Mənsub olduğu xalqının istiqlaliyyətini düşünən şairin "Gülüstan", "İstiqlal" və "Şəhidlər" kimi əsərləri Azərbaycan xalqının istiqlal uğrunda mübarizə mövzusunu qələmə alır, habelə "Dar ağacı", "Özümüzü kəsən qılınc", "Fəryad", "Atamın kitabı" kimi digər əsərlərində xalqın istiqlalına maneə olan problemlər, daxili və xarici düşmənlərin mənfur əməlləri əks etdirilmişdir. Bu da maraq doğurur ki, şairin özü "İstiqlal" əsərini böyük Azərbaycanın parçalanma tarixini anladan "Gülüstan" əsərinin davamı olduğunu qeyd etmişdir. Çünki XX əsrin sonunda Sovet Rusiyasının çökməsi ilə əlaqədar Azərbaycanda xalq hərəkatı baş qaldırır və xalq istiqlaliyyət uğrunda savaş açaraq öz müstəqilliyini qazanır, suveren Azərbaycan dövləti yenidən bərpa edilir. Bu üzdən şair:

"Gülüstan" yarandı düz qırx il əvvəl
Zərurət görmədim təsadüf qədər
Məqsədə yönəlir bu başsız axın.
Məndən rica etdi bir vətənsevər
Yazım davamını mən "Gülüstan"ın.
Yazmışdım mən onu düz qırx il qabaq.
O vaxtdan bu yana çox sular axdı
Arazın suyunda enib qalxaraq
Ürəkdə bəslənən arzular axdı [9, s. 82] –

deyə illərin döndüyü, xalqın milli birliklə apardığı istiqlaliyyət mücadiləsinin nəticələrini qəsd edərək sonrakı zamanlarda Azərbaycanla İran arasında yaranan əlaqələrin verdiyi imkanlar daxilində iki qardaş – Güney və Quzey Azərbaycan arasındakı həsrətin qismən keçməsi kimi mövzuları əks etdirir. Şair:

"Şəhidlər" nəticə, "Gülüstan" təməl.
Azadlıq verilməz, bilək bir kərə
Azadlıq alınar, budur doğru yol [9, s. 88]–

deyə 1988-ci ildən başlanan istiqlal mücadiləsi, Azərbaycanın qazandığı suverenlik və milli birlikdən söz açır, 1990-cı ildə Azərbaycan xalqına qarşı amansızlıqla törədilən 20 yanvar qətliamına həsr etdiyi "Şəhidlər" əsərinə işarə edir. Beləliklə, "Gülüstan" əsərində şairin qaldırdığı

ayrılıq fəryadı və parçalanma dərdi "İstiqlal" əsərində istiqlaliyyətin alınması coşqusu ilə əvəzlənir, Azərbaycan xalqının milli müstəqilliyi və istiqlaliyyəti mövzusunda "Şəhidlər" əsərinin əhəmiyyəti qabarıq şəkildə görünür. Əsərdəki:

İnsan insan olur öz hünəriylə,
Millət, millət olur xeyri, şəriylə.
Torpağın bağrına cəsədləriylə,
Azadlıq tumunu əkdi şəhidlər [9, s. 315]–

misraları ilə şair hünər və qəhrəmanlığın bir millətin və onun vətəndaşının müstəqillik və səadətinin təməlində dayandığını ifadə edir. Yaşından, cinsindən asılı olmayaraq bütün azəbaycanlıların mücadiləyə həmrəy olmaları əsərin mərkəzində dayanır və şair xalqın istiqlaliyyət coşqusunu göstərməklə bərabər uşaqdan tutmuş böyüyə qədər hər kəsin istiqlaliyyət uğrunda şəhid düşməsini ön plana çəkir.

**Şairin dramaturgiyasında istiqlaliyyət məsələsi**

Bəxtiyar Vahabzadənin dramaturji əsərlərində də istiqlal motivləri başlıca yer tutur. Şairin görkəmli Azərbaycan dramaturqu Cəfər Cabbarlıya həsr etdiyi və onun "Od gəlini" əsərinə iqtibas edərək yazdığı "Dar ağacı" əsərində orta əsrlər hadisələrinin əsasında XX yüzilliyin sonlarına doğru Azərbaycan cəmiyyətində baş verən hadisələrin məzmunu təqdim edilmişdir. Bütün ömrü boyu ərəb xilafətinə xidmət edən Aqşinin axırda "mən öz vətənimə qarşı vuruşanda ölü olmuşam" – deyə etiraf etməsi XX əsrin sonlarındakı bəzi Azərbaycan siyasi xadimlərinə ünvanlanan mənalı nəsihət idi. Bundan başqa görkəmli Azərbaycan dramaturqu Cəlil Məmmədquluzadənin "Anamın kitabı" əsərinə iqtibas olaraq yazılan "Atamın kitabı" əsərindəki hadisələr də XX əsrin sonlarında Azərbaycandakı hadisələrlə müqayisədə təqdim edilmişdir. Bu əsərdə də öz millətinin müqəddəratını düşünməyən "millət başçıları" – siyasi xadimlər tənqid olunmuş, millətin taleyi narahatlıqla əks etdirilmişdir. Bu baxımdan "biz "Dar ağacı", "Fəryad", "Özümüzü kəsən qılınc" əsərlərində milli mənəviyyat və müstəqillik, torpaq və əqidə bütövlüyü naminə fədakarlığa hazır olan insanlarla tanış oluruq" [7, s. 173].

**Bəxtiyar Vahabzadə yaradıcılığında ana dili milli istiqlal motivi kimi**

Ana dilimiz ən əsas milli dəyərimizdir. Çünki milli varlığımızın ilkin təməlini məhz ana dilimiz təşkil edir. Əgər ana dili yoxdursa, demək, xalq da yoxdur. Türk dilləri ailəsinə mənsub olan ana dilimizin min illərlə yaşı var. Bu dildə ən zəngin fikirlər ifadə olunub. Zəngin və məzmunlu xalq ədəbiyyatımız yaradılıb. Atalar sözləri və məsəllər, şirin, məzəli lətifələr ana dilimizin müdrikliyindən, "Kitabi-Dədə Qorqud", "Koroğlu" kimi dastanlar isə həm xalqımızın, həm də ana dilimizin qəhrəmanlığından yaranıb. Dilimizdə Həsənoğlu, Nəsimi, Şah babamız Xətai, dahi Füzuli, Vaqif, Cəlil Məmmədquluzadə, Hüseyn Cavid və başqa nə qədər görkəmli şeir-sənət adamları mənəvi xəzinə yaradıblar.

Ana dilimiz xalqımızın mənəvi varlığı, mövcudluğudur. Görkəmli Azərbaycan ziyalısı Firudin bəy Köçərli yazırdı ki: "Hər millətin özünəməxsus ana dili var ki, onun məxsusi malıdır. Ana dili millətin mənəvi diriliyidir, həyatının mayəsi mənziləsindədir" [F.Köçərli]. Ana dili xalqın keçmişini, qədimliyini özündə əxz edir. Min illər keçsə də, söz yaşayır, özü ilə barabər xalqı, onun həyat və düşüncə tərzini də yaşadır. Bu gün haqlı deyirlər ki, xalq ölər, dil yaşar. Dil ölsə, xalq da ölər, yaşamaz. Latınlar bu gün harda və necə yaşayırlar heç kimə bəlli deyil. Amma latın dili vaxtilə qüdrətli bir xalqın var oluşundan xəbər verir. Lakin bu gün bu dil olmadığından, yaşamadığından latın xalqı da yoxdur. Məhz bu mənada dil hər bir xalqın taleyidir. Azərbaycançılığın məşhur kəlamının müəllifi olan ümummilli liderimiz Heydər Əliyev ana dilimiz haqqında da deyirdi ki:

"Dilimiz çox zəngin və ahəngdar dildir, dərin tarixi köklərə malikdir. Şəxsən mən öz ana dilimi çox sevir və bu dildə danışmağımla fəxr edirəm". Bu əhəmiyyətindən irəli gəlirdi ki, görkəmli şair və ədiblər ana dilimizə məhəbbət əsərləri yazaraq onu sevməyi, qorumağı və yaşatmağı vəzifə biliblər. Belə vətənpərvər şairlərimizdən biri də Bəxtiyar Vahabzadədir. Onun yaradıcılığı ana dilimizə məhəbbət ideyası ilə zəngindir.

Türk dünyasının böyük şairi Bəxtiyar Vahabzadənin yaradıcılığında ana dili mövzusu başlıca yerdə gəlir. "Ana dili", "Anamın kitabı", "Mənim anam", "Neo", "Latın dili", "Hörümçək tor bağladı", "Lal-kar" və başqa şeirlərində məhz ana dilinin xalqın taleyindəki rolu əks olunmuşdur. Onun hər bir əsərində ana dilinə məhəbbət ön planda dayanır. Şair "Mənim anam" şeirində gerçək ana ilə tərbiyəedici ana olan ana dilinin vəhdətini yaradıb:

Savadsızdır,
Adını da yaza bilmir
Mənim anam...
Ancaq mənə,
Say öyrədib,
Ay öyrədib,
İl öyrədib.
Ən vacibi:
Dil öyrədib
Mənim anam...
Bu dil ilə tanımışam
Həm sevinci,
Həm də qəmi...
Bu dil ilə yaratmışam
Hər şeirimi,
Hər nəğməmi [4, s. 52-53].

"Neo" adlı şeirində isə dili ola-ola dilini danışa bilməmək dərdi əks olunub:

Yaman dərddir,
Dilin ola, nə danışıb, nə dinəsən.
Yaman dərddir,
Ağlın ola, özgəsinin ağlı ilə düşünəsən...
[4, s. 143].

Şairin "Hörümçək tor bağladı" şeirində isə ana dili milli ruh olaraq təqdim edilib:

Bu xalqın tarixini düz bildirən, düz yazan
Tarix kitablarında hörümçək tor bağladı.
Dilimiz yasaq oldu,
Ruhumuz qəlbimizdə əbədi dustaq oldu [4, s. 234-235].

"Latın dili" şeirində isə cəsarətli şair ana dilinin rəsmi məclislərdən kənar edilməsinə etiraz edir. Ana dilinə istiqlaliyyət, azadlıq istəyi ilə çıxış edir:

"Mən azadam, müstəqiləm" sözlərini
Öz dilində deməyə də
İxtiyarın yoxsa əgər,
De, kim sənə azad deyər?..
Söylə, necə azadsan ki,
Komalarda dustaq olub ana dilin
Böyük-böyük məclislərdən

İtirilib ilim-ilim?..
İclaslarda bir kəlməsi, sözü yoxdur.
Bəlkə... onun böyük, rəsmi məclislərə
Çıxmaq üçün üzü yoxdur?
...Sən dərdə bax,
Vətən də var,
Millət də var.
Ancaq onun dili yoxdur.
...İndi söylə,
Hansı dilə ölü deyək:
Vətən varkən,
Millət varkən,
Kiçik, yoxsul komalarda dustaq olan bir diləmi?
Yoxsa, uzun əsrlərdən keçib gələn,
Xalqı ölən,
Özü qalan bir diləmi? [4, s. 304-305]
Şair "Anamın kitabı" əsərində də:
Bizi bölə-bölə çəkdilər dara.
Əl çəkib müqəddəs atəşimizdən
Yüz illər baş əydik yad kitablara... [8, s. 48]–
deməklə, Azərbaycan türklərini yüz illərcə bölüb, başqa mənəviyyata, başqa qanunlara, başqa ideologiyaya yönəldilməsindən söz açmışdır. Onun "Ana dili" və "Anamın kitabı" kimi əsərlərində də milli dil və heysiyyət məsələlərinə toxunulur. Bu inkaredilməzdir ki, milli dil bütün millətlərin vazkeçilməz, itirilməz dəyəri, milli varlığının təməlində dayanan ən önəmli şərtdir. Bütün filosofların da söylədiyi kimi, "dil varsa, millət vardır, dil yoxsa, millət də yoxdur". Bu mövzu şairin "Ana dili" adlı şeirinin əsas mövzusudur. Şeirdə:
Bu dil, - bizim ruhumuz, eşqimiz, canımızdır,
Bu dil, - bir-birimizlə əhdi-peymanımızdır.
Bu dil, - tanıtmış bizə bu dünyada hər şeyi.
Bu dil, - əcdadımızın bizə qoyub getdiyi
Ən qiymətli mirasdır, onu gözlərimiztək
Qoruyub nəsillərə biz də hədiyyə verək [8, s. 3],
– deyə şair ana dilini – Azərbaycan dilini xarakterizə edir. Şairin fikrincə, ana dili insanın ruhudur, bütün mənalarda, sözün geniş mənasında dil insanın və millətin özünüifadəsi, məqsədinin təqdimi, sosial mühitlə əlaqəsi və ünsiyyət vasitəsidir. Bu baxımdan hər bir dili bir-birinə bağlayan bənzər ümumi şərtlər olsa da, fərqli, bilavasitə psixoloji, milli müstəvidən fərqli tərəfləri çoxdur. Sözlərin özündə yaşatdığı psixoloji məna özünəməxsusluğu milli olaraq insanları ayıra, bir millətə mənsubiyyətini fərqləndirə bilir. Məsələn, azərbaycanlıların istifadə etdiyi "can", "aman" və başqa sözlər yalnız azərbaycanlıların anlaya biləcəkləri anlamlarda işlənə bilir. Bu və çoxsaylı digər şərtlərlə dil bir anlamda da yalnız millidir, o millətə aiddir, onun vətəndaşlarının bütün ruhunu – keçmişdən üzü bəri bütün yaşayışı boyunca tamamən ruhunu özündə yaşadır, ifadə edir. B.Vahabzadənin "Ana dili" şeirində də poetik şəkildə məhz ana dilinin bu xüsusiyyətlərindən bəhs edilmişdir. Şeirdəki: "Sən xalqının aldığı ilk nəfəsdən yarandın" misrasında şair Azərbaycan dilinin xalqın nəfəsindən yarandığını söyləməklə onu xalqın çoxminillik yaşayış, həyat, düşüncə, heysiyyət və bütün duyğularının daşıyıcısı kimi səciyyələndirir. Azərbaycan xalqının istiqlal şairlərinin mənəvi atası sayılacaq ustad əhməd cavadaın "Yarandın" rədifli şeirini yada salaraq və onunla

müqayisə kontekstində deyə bilərik ki, Ə.Cavadın Azərbaycanın dövlət bayrağına həsr olunmuş "Yarandın" rədifli şeiri dövlət atributlarına həsr edilən şeirlərin bayraqdarı, B.Vahabzadənin ana dilinə həsr olunmuş "yarandın" rədifli şeiri isə ana dilimizə həsr edilən şeirlərin bayraqdarı hesab edilə bilər. Şairin "Muğam", "Özümüzü kəsən qılınc", "Dar ağacı" kimi əsərlərində də azərbaycanlıların milli dəyərləri, müstəqilliyi, istiqlalı və başqa bu kimi motivlər əhəmiyyətli yer tutur.

**Nəticə**

Bəxtiyar Vahabzadənin bütün əsərləri həm Azərbaycan, həm türk dünyası milli birliyi və istiqlal motivlərilə zəngindir. Şairin "Bütün millət dönməliykən yumruğa, Türkün türklə ədavətə haqqı yox" misrası türk dünyası birliyinə uğurla xidmət edən böyük Mustafa Kamal Atatürkün "Türkün türkdən başqa dostu yoxdur" və Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin "Biz bir millət, iki dövlətik" kimi siyasi aforizmlərinin poetik davamı olaraq səslənir. Şair "Azərbaycan-Türkiyə", "Atatürk", "Mən türkəm" və başqa əsərlərində də bu mövzuya toxunur, türk dünyasının gələcəyi haqqında təəssüratlarını əks etdirir. Yaradıcılığında türk dünyası və onun birliyi məsələsinə xüsusi yer verdiyi üçün B.Vahabzadəyə "türk dünyasının böyük şairi" [1; 2; 3; 4; 6] adı verilmişdir. "Bəxtiyar Vahabzadə təkcə Azərbaycan xalqının deyil, bütün türk dünyasının böyük, sevimli və əbədiyaşar şairidir" [1]. Bunun üçün də Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyev Bəxtiyar Vahabzadəyə "xalqın düşüncə və arzuları, hiss və duyğuları, istək və arzuları həmişə sizin zəngin yaradıcılığınızın, mübariz poeziyanızın cövhəri olmuşdur" – deyə bəhs etmiş, milli istiqlal yolundakı xidmətlərinə görə onu "İstiqlal" ordeni ilə təltif etmişdir. Türkiyə Cümhuriyyətinin prezidentlərindən olan Süleyman Dəmirəl də böyük şair haqqında: "Sizin ədəbi yaradıcılığınız bütün türk dünyasının mənəvi birliyi və yüksəlişi ilə yaxından bağlıdır",– deyə bəhs edərək onun türk dünyası qarşısındakı xidmətlərini yüksək qiymətləndirmişdir.

## ƏDƏBİYYAT


1. Abbasov İ. Türk dünyasının böyük şairi Bəxtiyar Vahabzadə. "Ədəbiyyat" qəzeti, 2004, 14 avqust.
2. Ayazqızı S. Bəxtiyar Vahabzadə və türk dünyası. "Ədəbiyyat" qəzeti, 2012, 17 fevral.
3. Aytmatov Ç. Yaradıbdır inam məni, Mən inamın övladıyam // B.Vahabzadə. Seçilmiş əsərləri. İki cilddə, I c., Bakı: Öndər, 2004, 328 s.
4. Bəxtiyar Vahabzadə. Bakı: Azərbaycan, 2000.
5. Feyziyev C. Adı Bəxtiyar, taleyi Azərbaycan. "Xalq" qəzeti, 2013, 12 yanvar.
6. Qafarlı R. Türk dünyasının Bəxtiyarı. "Xalq" qəzeti, 2009, 19 fevral.
7. Məmmədli M. Bəxtiyar Vahabzadə: İstiqlal şairi. "Azərbaycan" jurnalı, 2004, №9, s. 172-180.
8. Vahabzadə B. Seçilmiş əsərləri. İki cilddə, I c. Bakı: Öndər nəşriyyat, 2004, 328 s.
9. Vahabzadə B. Seçilmiş əsərləri. İki cilddə, II c. [Poemalar]. Bakı: Öndər nəşriyyat, 2004, 320 s.
10. Yusifli V. Bir ömür poeziyası. "Azərbaycan" jurnalı, 1999, №4, s. 166-172.
11. Bəxtiyar Vahabzadənin 100 illik yubileyinin qeyd edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı // URL: https://president.az/az/articles/view/68214.


***AMEA Naxçıvan Bölməsi**
***E-mail: ramizasef@yahoo.com.tr***

**Ramiz Gasimov**

**POETICAL POINT OF BAHKTIAR VAHABZADE'S CREATIVITY: CALLS FOR NATIONAL UNITY AND INDEPENDENCE**

The important figure of Azerbaijan literature Bahtiyar Vahabzadeh in his works contributed to the national awakening,independence and unity of Azerbaijani Turks, therefore went down in our history as one of the prominent names of Azerbaijan independent literature. For such intensive labour the great leader of the Azerbaijan Republic Haydar Aliyev awarded him with "Istiklal"[independence] order. Great poet's so-called work "Gulustan" was just devoted to the "Gulustan" treaty which was the reason of division Azerbaijan into two-the North and the South and also it was one of the most readable poems during independence and awakening period. In his works included such significant topics and motives as national and political freedom of Azeri Turks, Turkish unity and thought, unity and brotherhood of Turkish world and etc.The poet's works such as "Gulustan", "Independence" and "Martyrs" contain struggle against the independence of Azerbaijani Turkish people. Different topics as national language and dignity were discussed in "Mother tongue" and "My mother's book" and also issue of belonging to Azerbaijan-Turkish nation in his "I am son of Azerbaijan". Such motives as national values, national freedom and independence of Azerbaijan Turks occupy important place in poet's works such as "Mugam","Sword cutting ourselves", "Gallows".

**Keywords:** *Bahtiyar Vahabzadeh, national independence, national unity, thought motives.*

**Рамиз Касымов**

**ПОЭТИЧЕСКИЙ СУТЬ ТВОРЧЕСТВА БАХТИЯРА ВАХАБЗАДЕ: ПРИЗЫВЫ К НАЦИОНАЛЬНОМУ ЕДИНСТВУ И НЕЗАВИСИМОСТИ**

Выдающийся представитель азербайджанской литературы Бахтияр Вахабзаде [1925-2009] отражающий в своих произведениях внесли большой вклад в национальное возрождение азербайджанских тюрков, в завоевание независимости и единение тюркских народов. За большие заслуги на этом поприще общенациональный лидер азербайджанского народа Гейдар Алиев наградил Бахтияра Вахабзаде орденом «Истиглал». Одним из самых значительных и популярных произведений Бахтияра Вахабзаде является поэма «Гюлистан», посвященная Гюлистанскому мирному договору, разделившему Азербайджан на две части: Северный и Южный Азербайджан.

Его произведения «Гюлистан», «Истиглал» [«Независимость»] «Шехиды» посвящены борьбе азербайджанских тюрков за свободу и независимость. Проблемам национального самосознания, национального языка посвящены произведения поэта «Сыны Азербайджана», «Родной язык», «Книга моей матери». Произведения «Мугам», «Режущий нас меч», «Виселица» посвящены проблемам свободы, национального достояния азербайджанских тюрков.

**Ключевые слова:** *Бахтияр Вахабзаде, национального единства, национальное самосознание, мотивы независимости.*

**İlk daxilolma tarixi: 22.07.2025**
**Son daxilolma tarixi:18.08.2025**